# AZHAB FORUM

AZƏRBAYCAN
HALAL BİZNES FORUMU

**7-8 OKTYABR, 2025**

BAKI, AZƏRBAYCAN

# GÜNDƏLİK

## Mövzu: "Sürətlə dəyişən dünyada halal sənaye dayanıqlılığın mənbəyi kimi"

### ÜMUMİ MƏLUMAT

Azərbaycan Halal Biznes (AZHAB) Forumu əməkdaşlığın inkişafına, bilik mübadiləsinə, məhsulların nümayişinə və halal sənayedə etik və dayanıqlı təcrübələrin təşviqinə, habelə biznesin inkişafının və beynəlxalq əməkdaşlığın stimullaşdırılmasına yönəldilmişdir.

Müxtəlif maraqlı tərəfləri, o cümlədən hökumət nümayəndələrini, sahə üzrə ekspertləri, sahibkarları və alimləri bir araya gətirən AZHAB Forumu regionda ümumilikdə daha dinamik, inklüziv və çiçəklənən halal biznesin inkişafı üçün yol xəritəsi müəyyən etməyə çalışır. İlk AZHAB Forumu 2024-cü ilin oktyabr ayında keçirilmiş və Avstraliya, Amerika, Avrasiya və Afrika da daxil olmaqla dünyanın müxtəlif guşələrindən təxminən 100-ə yaxın beynəlxalq iştirakçını bir araya toplamışdır.

2025-ci ildə keçiriləcək növbəti AZHAB Forumunda halal sənaye konsepsiyası həm nəzəri, həm də praktiki baxımdan müzakirə ediləcəkdir. "Sürətlə dəyişən dünyada halal sənaye dayanıqlılığın mənbəyi kimi" əsas mövzu olaraq seçilmişdir və bu, hazırkı qlobal siyasi, iqtisadi və sosial meylləri əks etdirir.

Dünyada baş verən siyasi, iqtisadi və sosial dəyişikliklər şəraitində halal sənaye qlobal bazarların şaxələndirilməsi, etik normalar, maliyyə dayanıqlılığı və sabit istehlakçı tələbatı sayəsində bir çox digər sahələrdən daha səmərəli şəkildə iqtisadi çətinliklərin öhdəsindən gələ bilər. Davamlı inkişaf, risklərin bölüşdürülməsi və yerli icma ilə qarşılıqlı əlaqəyə əsaslanan biznes modellərinə vurğu onun sürətlə dəyişən qlobal iqtisadiyyata uyğunlaşmaq və bu iqtisadiyyatda uğur qazanmaq qabiliyyətini daha da möhkəmləndirir.

Halal sənaye qlobal tələbatı, rəqəmsal transformasiyanı, yerli istehsalı və effektiv sertifikatlaşdırma sistemlərini istifadə edərək ticarət dəyişikliklərinə davamlı bir model təklif edə bilər. Yeni ticarət çətinlikləri ilə üzləşən dünyada halal biznes bazarları şaxələndirə, özünütəminetmə səviyyəsini artıra və məhdudiyyətlərə baxmayaraq inkişaf etmək üçün halal standartlarından rəqabət üstünlüyü kimi istifadə edə bilər.

İnnovasiyaları dəstəkləmək, etik istehlakı təşviq etmək, maliyyə sabitliyinə töhfə vermək, eləcə də qlobal əməkdaşlığı gücləndirməklə halal sənaye iqtisadi sabitliyə və uzunmüddətli inkişafa əhəmiyyətli dərəcədə töhfə verə bilər. Onun yeni meyillərə uyğunlaşmaq qabiliyyəti sosial məsuliyyətə və dayanıqlı inkişafa yönəlik vurğu ilə birləşərək, qlobal iqtisadiyyatın dayanıqlığının mühüm tərkib hissəsinə çevirir.

Halal konsepsiyası pəhriz qaydalarının hüdudlarını çox aşır və maliyyə əməliyyatlarında etik davranışı, eyni zamanda ümumilikdə həyat tərzi seçimlərini əhatə edir. Geosiyasi qeyri-sabitlik dövrlərində halal sistem fərdlərə və icmalara mənəvi aydınlıq, sabitlik və həyatın mənasını təmin edərək psixoloji dayanıqlılıq mənbəyi kimi xidmət edə bilər.

## SESSİYALAR

### 1. İnkişaf etməkdə olan bazarlarda İslam maliyyəsi üçün rəqabətli mühitin yaradılması: müxtəlif regionların təcrübəsi və çıxarılan dərslər

İslam maliyyəsi xüsusilə inkişaf etməkdə olan ölkələrdə, əhalinin əhəmiyyətli bir hissəsinin ənənəvi maliyyə ilə yetərincə əhatə olunmadığı hallarda inklüziv, etik və dayanıqlı iqtisadi inkişaf üçün güclü bir alət hesab olunur. Lakin onun tam potensialının açılması üçün çoxsəviyyəli inkişaf strategiyası tələb olunur. İnkişaf etməkdə olan bazarlarda İslam maliyyəsi üçün rəqabət mühitinin yaradılması tənzimləyici islahatların, eləcə də maliyyə infrastrukturunun inkişafının, kadr hazırlığının və ictimaiyyətin məlumatlılıq səviyyəsinin artırılmasının strateji şəkildə birləşdirilməsini tələb edir.
Bu yolda qarşıda duran əsas vəzifələrə, xüsusilə İslam maliyyəsinə dair xüsusi qanunların qəbulu, milli və institusional səviyyələrdə şəriətə nəzarət şuralarının yaradılması/gücləndirilməsi, İslam müqavilələri üzrə xərclərin hüquqi tanınmasının təmin edilməsi, İslam maliyyələşdirilməsinin milli maliyyə strategiyalarına inteqrasiyası, KOB-ların İslam maliyyələsinə çıxışının təmin edilməsi daxildir. Təkafülün (İslam sığortası) və İslam maliyyə texnologiyalarının (fintex) inkişafının dəstəklənməsi, İslam maliyyəsinin infrastrukturu və ekoloji layihələrdə tətbiqi, bu sahədə təlim, diplom və sertifikatlaşdırma proqramlarının yaradılması əsas prioritetlərdən biridir. Hesab edirik ki, bu panel müvafiq sahədə müzakirələrin gücləndirilməsinə xidmət edəcək, auditoriyanı müxtəlif regionlardan əldə olunmuş praktiki təcrübə ilə zənginləşdirəcək və mütəxəssislərə, həmçinin müvafiq dövlət orqanlarına İslam maliyyəsinin inkişafı sahəsində öz yollarını daha dəqiq müəyyənləşdirməyə kömək edəcəkdir.

### 2. Halal biznesin idarə olunması: uğurun harmoniyası və ya harmoniyanın uğuru

Bu panelinin məqsədi İslam və ənənəvi biznes idarəetməsi psixologiyası arasındakı əsas fərqləri müzakirə etməkdir. İslam biznes idarəetməsi baxımından biznes yalnız iqtisadi fəaliyyət kimi deyil, əgər o, etik qaydalara və ilahi prinsiplərə uyğun şəkildə aparılarsa ibadət forması kimi qiymətləndirilir. Son məqsəd hərtərəfli uğura nail olmaqdır. Bunun əksinə olaraq, ənənəvi biznes idarəetməsi kapitalizm, utilitarizm və individualizm kimi dünyəvi ideologiyalara əsaslanır. Burada əsas məqsəd tez-tez səhmdarların rifahının yaxşılaşdırılmasıdır. Qanunvericiliyə əməl olunması və bazar dinamikası ilə müəyyən edilən etik məsələlər isə ikinci dərəcəlidir.
Halal idarəetmə psixologiyası istehlakçı davranışının, komanda idarəetməsi prinsiplərinin, biznes etikasının və halal sənayeyə təsir edən psixoloji amillərin dərk olunmasına əsas diqqəti yönəldir. O, biznes strategiyalarının təkmilləşdirilməsi, kadrların idarə olunması, istehlakçı etimadının artırılması və etik qərarların qəbulu məqsədilə İslam prinsiplərini psixoloji baxışlarla birləşdirir.
Ənənəvi modellər maddi gəlirin yüksəldilməsinə yönəldiyi halda, İslam biznes idarəetməsi mənfəəti etika, mənəviyyat və sosial ədalətlə harmoniyalaşdıran dəyərlərə əsaslanan hərtərəfli bir sistemə can atır.

Davamlılıq və etik dəyərlərə getdikcə daha çox önəm verilən müasir dünyada, İslam biznes modeli müasir dövr üçün əhəmiyyət kəsb edən əbədi prinsiplər təqdim edir. Belə ki, burada biznes sadəcə bir əməliyyat deyil, həm də bir etimad, məsuliyyət və ümumi xeyir yoludur. Günümüzdə bu xüsusilə vacib və aktualdır ki, halal biznesin idarə olunması yaşıl keçidlə güclü sinerji yarada bilər, burada etik, dayanıqlı və məsuliyyətli iqtisadi təcrübələr biznesin aparılmasının əsas rəhbər prinsiplərinə çevrilə bilər.

Beləliklə, bu panel müzakirəsi çərçivəsində aparılan müzakirələr həm fərdlər, həm də peşəkar komanda üçün harmoniyanın axtarışında əsaslı fərqləri üzə çıxaracaq, eyni zamanda biznesin idarə olunmasına dair strateji baxımdan rəqabətqabiliyyətli yanaşmaların müəyyənləşdirilməsinə kömək edəcəkdir.

### 3. Qlobal yaşıl keçid diskursunda KOB-ların rolunun artırılması: KOB-ların yaşıl keçidi üçün Bakı İqlim Koalisiyası üzrə Birgə Bəyannamə

Yaşıl keçid bütün müəssisələr, xüsusilə də KOB-lar üçün asan proses deyil. Adətən ümumi problemlərə bilik çatışmazlığı, kifayət qədər potensialın olmaması və maliyyə resurslarına məhdud çıxış daxildir. Bu qlobal problemlərin həlli, KOB-ların fəaliyyət göstərəcəyi ekosistem çərçivəsində bütün maraqlı tərəflərin qlobal səylərini tələb edir.

İqlim dəyişikliyi ilə mübarizə sahəsində özəl sektor əsasən iri korporasiyalara yönəlsə də, dünyadakı bütün müəssisələrin təxminən 90%-ni təşkil edən KOB-lar kiçik miqyaslarına görə tez-tez diqqətdən kənarda qalırlar. Bununla belə, onların faktiki ümumi emissiya həcminin qlobal miqyasda 50%-ə çatdığını nəzərə alsaq, KOB-lar qlobal dayanıqlı inkişaf hədəflərinə nail olunmasında şübhəsiz ki, həlledici rol oynayırlar. Bundan əlavə, dünya üzrə məşğulluğun 70%-i KOB-ların payına düşür. Bu o deməkdir ki, resurslardan səmərəli istifadə və ekoloji cəhətdən təhlükəsiz metodların tətbiqindən əlavə, KOB-lar əhalinin arasında məsuliyyətli istehlak mədəniyyətinin formalaşdırılması yolu ilə də ətraf mühitin mühafizəsinə töhfə verə bilərlər. Yuxarıda qeyd olunanları nəzərə alaraq, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) "KOB-ların yaşıl keçidi üçün Bakı İqlim Koalisiyası üzrə Birgə Bəyannamə" təşəbbüsünü irəli sürmüşdür. Bu Bəyannamə Azərbaycanın COP29-da sədrliyinin prioritetlərindən biri kimi təqdim edilmişdir. Bəyannamə rəsmi şəkildə 13 noyabrın 2024-cü ildə COP29 çərçivəsində Bakıda təqdim olunmuşdur. Bu günə qədər Bəyannaməyə müxtəlif ölkələrdən on milli qurum və səkkiz nüfuzlu beynəlxalq təşkilat qoşulmuş və onu dəstəkləmişdir (ətraflı məlumat greensme.org saytına yerləşdirilmişdir). Bəyannamə bütün institusional iştirakçıları və fərdi şəxsləri KOB-lara həm iqlim dəyişikliyinin yaratdığı problemlərin aradan qaldırılmasında, həm də onların yaşıl transformasiyasında yardım göstərmək məqsədilə səyləri birləşdirməyə çağırır. O, həm yumşaq, həm də institusional həllər təklif edir.

Bu sessiyanın məqsədi Bəyannamənin müddəalarının həyata keçirilməsi məsələlərinin müzakirəsinə başlamaq üçün bütün mövcud və potensial tərəfdaşları bir araya gətirməkdir.

## 4. Halal sənayenin inkişafında qadınların rolu

Halal sənayenin təqdim etdiyi imkanlar qadınların vəziyyətinin yaxşılaşdırılması üçün böyük potensial açır ki, bu da öz növbəsində halal sənayenin daha da genişlənməsinə və dərinləşməsinə töhfə verəcəkdir. Qadınlar halal sənayenin inkişafında transformativ rol oynaya bilərlər, eyni zamanda öz liderlik keyfiyyətlərini, yaradıcılıqlarını və gələcəyə dair müxtəlif baxışlarını gətirməklə müxtəlif sahələrdə artımın, innovasiyaların və dayanıqlı inkişafın stimullaşdırılmasına da töhfə verə bilərlər.

Qadınlar sertifikatlaşdırılmış halal qida brendləri, dəb xətləri, kosmetika və ya sağlamlıq məhsulları təqdim etməklə həm İslam dəyərlərinə, həm də müasir istehlakçı meyillərinə uyğun innovativ həllər yarada bilərlər. Qadınların halal biznesdə liderliyi digərlərinə ilham verməklə yanaşı, bu sektorda daha çox müxtəlifliyə və inklüzivliyə töhfə verə bilər. Həmçinin qadınlar halal sənayedə etik, dayanıqlı və sosial məsuliyyətli təcrübələrin təşviqində təsirli rol oynaya bilərlər. Maarifləndirici və fəallar olaraq qadınlar halal sənayenin etik standartları və onun qlobal iqtisadiyyata verdiyi töhfə barədə məlumatlılığın artırılmasında da mühüm rol oyana bilərlər. Qadınlara ictimai fəaliyyət, təhsil və dövlət siyasətinin müzakirəsində iştirak imkanı yaratmaqla, sosial ədalət, heyvanların rifahı və ekoloji dayanıqlılıq kimi əsas məsələlərin həllinə töhfə verə bilər. Qadınların ailə ehtiyacları, istehlakçı üstünlükləri və həyat tərzi meyillərini anlama qabiliyyəti onlara daha geniş auditoriyada qarşılıq tapan məhsul və xidmətlər hazırlamağa imkan verir. Onların qlobal ticarət şəbəkələrində və ixrac yönümlü müəssisələrdə iştirakı halal məhsulların beynəlxalq bazarlara çıxarılmasına töhfə verə bilər, xüsusilə də etik şəkildə istehsal olunmuş və sertifikatlaşdırılmış mallara tələbatın olduğu yerlərdə.

Bundan əlavə, onlar halal sənayedə şəbəkələrin və alyansların yaradılmasında əsas rol oynaya bilərlər. Qadınlar müəssisələr, təchizatçılar və digər maraqlı tərəflər arasında əməkdaşlıq və bilik mübadiləsi üçün platformalar yaradaraq ümumi birlik hissinin güclənməsində və qarşılıqlı inkişafda mühüm rol oynaya bilər. Bu da, həmçinin mentorluq imkanları yaradaraq, qadınlara öz təcrübələrini bölüşməyə və başqalarını halal sənayeyə çıxışına və uğura ruhlandırmağa şərait yaradır. Sahibkarlıq, liderlik, innovasiya və ictimai fəaliyyətdə fəal iştirak sayəsində qadınlar sektoru daha inklüziv, etik və qlobal bazarda rəqabətqabiliyyətli edərək onun gələcəyini formalaşdıra bilərlər.

Bu sessiyada halal sənayenin bütün aspektlərində – biznesə sahib olmaqdan məhsulun hazırlanmasına və yerli icma ilə qarşılıqlı əlaqəyə qədər qadınların iştirakının təşviqi yolları nəzərdən keçiriləcək, bunun sektorun inkişafına, iqtisadi inkişafa və sosial tərəqqiyə əhəmiyyətli töhfə verməsi vurğulanacaqdır.

## 5. Qafqaz və Mərkəzi Asiyada halal turizmin inkişafında tarixi irsin rolu

Tarixi irs bütün dünyada halal turizmin inkişafının təməl daşıdır. Onu qoruyub və təşviq etməklə turistik istiqamətlər yalnız müsəlman səyyahları cəlb etmir, həm də İslam dəyərlərinə əsaslanan və mədəni cəhətdən zənginləşdirici turizm modelini yaradır.

Tarixi irs Qafqazda və Mərkəzi Asiyada halal turizmin inkişafı üçün əhəmiyyətli dərəcədə istifadə olunmamış potensiala malikdir. O, müsəlman səyyahları öz imanlarına və tarixlərinə toxunmağa can atdıqları zəngin çeşiddə İslam və İslamdan öncəki mədəni və

memarlıq əsərləri ilə cəlb edir. Eyni zamanda halal turizm məscidlər, mədrəsələr, saraylar, karvansaraylar və s. kimi tarixi abidələrdən ibarət İslam irsinin qorunması və təbliğində həlledici rol oynaya bilər. Onlar mənəvi bağlılığını gücləndirmək, tarixi biliklər əldə etmək və öz irsi ilə fəxr etmək istəyən müsəlman turistləri cəlb edirlər.

Qeyd etmək vacibdir ki, İslamın digər mədəniyyətlərlə birgə mövcudluğundan bəhs edən tarixi irs dinlərarası qarşılıqlı anlaşmaya və İslam mədəniyyətinə müsbət yanaşmanın formalaşmasına töhfə verir. Bu irs tarixə maraq göstərən həm müsəlman, həm də qeyri-müsəlman turistləri cəlb edir. Bu baxımdan regionun xristian, yəhudi və digər dini ənənələri, halal turizm strategiyalarına başqa dinlərə hörmət əlaməti olaraq, daxil edildiyi təqdirdə, dinlərarası qarşılıqlı anlaşmanın, tarixi maarifləndirmənin və mədəni harmoniyanın inkişafında əhəmiyyətli rol oynaya bilər. Bu, həm müsəlman, həm də qeyri-müsəlman turistlər üçün səyahət təəssüratlarını zənginləşdirir və xüsusilə ümumi tarixə malik multikultural regionlarda əməkdaşlıq üçün yeni yollar açır.

Tarixi məkanların ziyarəti keçmiş sivilizasiyalar, ölkələr və imperiyalar, onların sülalələri, alimləri, mətbəxi, həyat tərzi, zövqləri və üstün tutduqları sahələr, həmçinin memarlığı barədə daha çox məlumat əldə etməyə imkan verir. Turizm belə bir irsin qorunmasına və təbliğinə töhfə verir və hətta məşğulluğu, yerli sənətkarlığın inkişafını və halal xidmət sektorlarını (qidalanma, qonaqpərvərlik, nəqliyyat) stimullaşdırmaqla onu maliyyələşdirə bilər. Bu sahə dayanıqlı, şəriətə uyğun turizm infrastrukturuna investisiyaları stimullaşdırır və ümumi iqtisadi inkişafa töhfə verir. Yerli icmaların halal turizmin inkişafı və təşviqinə cəlb olunması onun uzunmüddətli uğurunun təmin olunması baxımından həlledici əhəmiyyət kəsb edir.

Öz zəngin tarixi irsindən istifadə etməklə Qafqaz və Mərkəzi Asiya həm mədəni irsin qorunmasına, həm də iqtisadi artıma töhfə verən halal turizm üçün cəlbedici istiqamətlərə çevrilə bilər.

Bu panel müzakirəsi regionun tarixi irsinin turizmin inkişafı üçün necə səfərbər edilə biləcəyi və bu sahədə əməkdaşlıq vasitəsilə hansı regional sinerji effektin yaradıla biləcəyi barədə ətraflı müzakirəyə töhfə verəcəkdir.

### 6. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində KOB-ların dəstəyi ilə məşğul olan təşkilatların əməkdaşlığının təşviqi: İƏT KOB Şəbəkəsinin ilk iclası

İslam Ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqatlar və Tədris Mərkəzi (SESRIC) tərəfindən hazırlanmış "İƏT Ölkələrinin İqtisadi Perspektivləri 2024" adlı hesabatına əsasən, mikro, kiçik və orta müəssisələr İƏT ölkələrindəki bütün müəssisələrin 99,9%-ni təşkil edir, 93,4% məşğulluğu və 84,9% əlavə dəyəri təmin edir ki, bu da dünya üzrə orta göstəricilərdən yüksəkdir və onların regionun sosial-iqtisadi inkişafında mühüm rol oynadığını göstərir.

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) yardımçı orqanı olan SESRIC statistik, iqtisadi və sosial tədqiqatlara, eləcə də təlim və texniki əməkdaşlığa dair sahələrdə İƏT daxilində sosial-iqtisadi inkişafa və əməkdaşlığın genişləndirilməsinə töhfə vermək səlahiyyətinə malikdir.

İƏT çərçivəsində KOB-larla əlaqəli qurum, təşkilat və agentliklərin Şəbəkəsinin yaradılması, KOB-ların inkişafına və iqtisadi rifahın təmin olunmasına töhfə verəcəkdir.

Bu baxımdan İƏT KOB Şəbəkəsi KOB-ların inkişafı üzrə səylərin əlaqələndirilməsinə xidmət edəcək, təcrübə mübadiləsi mədəniyyətini formalaşdıracaq və sürətli texnoloji inkişaf, eləcə də müxtəlif inkişaf prioritetləri şəraitində problemlərin birgə həllinə töhfə verəcək. Eyni zamanda bu təşəbbüs SESRIC-in üzv ölkələrin inkişaf səylərinə dəstək vermək üçün fəal şəkildə təşviq etdiyi Cənub-Cənub Əməkdaşlığının mahiyyətini əks etdirir.

Sessiyanın məqsədi İƏT ölkələrindən olan maraqlı KOB dəstəyi təşkilatları arasında əməkdaşlıq üçün konkret imkanların müzakirəsinə başlamaq və SESRIC-in KOBİA ilə birgə təşəbbüsü əsasında İƏT-in Kiçik və Orta Sahibkarlıq Şəbəkəsinin (İƏT KOB Şəbəkəsi) işinə start verməkdir.

**AZHAB FORUM**

AZƏRBAYCAN
HALAL BİZNES FORUMU

**7-8 OKTYABR, 2025**

BAKI, AZƏRBAYCAN